“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ 12 (19) ✦ 31 dekabr 2025-ci il







## Balakəndə Ümummilli Lider Heydər Əliyevin xatirəsi ehtiramla anılıb















Bu gün ölkəmizin inkişaf yoluna, dövlətçilik təməllərinə, müstəqilliyimizin möhkəmlənməsinə ömrünü həsr etmiş böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevin xatirəsi Balakənda böyük ehtiram və minnətdarlıq hissi ilə yad edilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü münasibətilə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, RİHB aparatının kollektivi, rayon hüquq-mühafizə orqanlarının və idarə, müəssisələrin rəhbərləri, əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər və müharibə veteranları Ulu Öndərin abidəsini ziyarət ediblər. Ulu Öndərin abidəsi önünə tər çiçəklər düzülüb, onun əziz və unudulmaz xatirəsinə ehtiram ifadə olunub.

Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizə dərin hörmət əlaməti olaraq Şəhidlər Xiyabanı ziyarət edilib.

Daha sonra “Qubek” otelində Ümummilli Lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü münasibətilə “Dövlət və xalq üçün yaşanan ömr” mövzusunda konfrans keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Balakən Rayon İcra Hakimiyyəti başçısı Natiq Ağayev çıxışında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. Ömrünü öz xalqına həsr edən Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətlərindən danışıb.

Digər çıxış edənlər bildiriblər ki, Ulu Öndərin xatirəsi hər bir azərbaycanlı üçün əziz və müqəddəsdir. Azərbaycanın müasir tarixi, milli dövlətçiliyimiz bu dahi şəxsiyyətin adı ilə sıx bağlıdır. Müasir Azərbaycan tarixinin yaradıcısı olan Heydər Əliyev xalqımızın qürur mənbəyi, tarixi bir şəxsiyyət kimi yaddaşlara əbədi həkk olunub. Xalqımız həyatını Azərbaycanın tərəqqisinə həsr etmiş Ümummilli Liderini heç vaxt unutmur və unutmayacaqdır.

Konfransın sonunda Ulu Öndər Heydər Əliyevə həsr olunmuş film nümayiş etdirilib.

Sonra Ümummilli Liderin anım günü ilə əlaqədar ehsan mərasimi təşkil olunub.

**Yeni Balakən**

## “Media ilə rəhbərlik arasında səmimi dialoq”





Balakən Rayon İcra Hakimiyyətində rayon rəhbəri Natiq Ağayevin bölgədə fəaliyyət göstərən media nümayəndələri ilə görüşü keçirildi. Görüşdə qəzet, televiziya, sayt və informasiya agentliklərinin əməkdaşları iştirak edərək, öz sahələrinə aid məsələləri, rastlaşdıqları problemləri və təkliflərini səsləndirdilər.

Uzun illər Balakəndə bir çox media nümayəndələri tam və ətraflı fəaliyyət göstərə bilmirdi. Bunun səbəbi əvvəlki rəhbərliyin idarəetmədəki səriştəsizliyi və media nümayəndələrinə göstərdiyi münasibətlə bağlı idi. Yeni rəhbərlik isə ilk gündən mətbuatla səmimi münasibət quraraq, dördüncü hakimiyyətin dövlət və cəmiyyət həyatındakı roluna xüsusi diqqət yetirdi.

“Yeni Balakən” qəzeti olaraq biz də həmin tədbirdə iştirak etdik. Rəhbər bizə söz verdikdə, qəzetin redaksiya otağının olmaması və digər problemləri dilə gətirdik. Natiq müəllim məsələlərin müsbət yöndə həll olunacağını bildirdi, qəzetlə bağlı əhəmiyyətli tövsiyələr verdi. Media nümayəndələri də öz sahələrində informasiya təminatında rastlaşdıqları çətinlikləri, irad və təkliflərini səsləndirdilər.

Natiq Ağayev Balakən rayonunda indiyə qədər görülməyən, görülməkdə olan və görüləcək işlərdən danışaraq, bu proseslərin mediada düzgün təqdimatının gələcəkdə işlərin daha asan və keyfiyyətli, sakinlərin də məlumatlı olmasına xidmət edəcəyini vurğuladı.

Bu sadəcə bir toplantı deyildi, Balakən və bölgədə fəaliyyət göstərən media nümayəndələri üçün bu görüş yeni bir səhifə açdı. Açıq dialoq və rəhbərliyin diqqəti bizə göstərdi ki, bundan sonra bölgənin informasiya təminatı daha güclü və şəffaf olacaq. “Yeni Balakən” qəzeti olaraq biz də bu prosesin önündə dayanaraq, hər bir vətəndaşın səsini eşidilən bir mətbuat orqanı olmağa davam edəcəyik. Görüşün yaratdığı ümid və ruh yüksəkliyi isə bizə gələcəyə daha böyük inamla baxmağa imkan verir.

**Yeni Balakən**

# MİLLİ MƏTBUATIN 150 İLLİYİ MÜNASİBƏTİLƏ TƏLTİF






Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə Azərbaycan Respublikası Media İnkişafı Agentliyi tərəfindən yubiley medalı ilə təltif olunmaq mənim üçün böyük bir şərəfdir. Bu medal təkcə şəxsi deyil, həm də "Yeni Balakən"–in, bütün yaradıcı dostlarımızın, yerli qəhrəmanlarımızın və Balakənin ruhunu yaşadan hər kəsin uğurudur.

Bu təltif, mətbuatın gücünə, yerli hekayələrin dəyərinə və ictimai yaddaşın qorunmasına olan inamımızın rəsmi təsdiqidir. Bu yolda bizimlə olan hər kəsə təşəkkür edirəm.

**Ramazan Abalov**

# Balakən Rayon Mərkəzi Xəstəxanasında ilin yekun iclası keçrildi



İclasda il ərzində görülən işlər və həyata keçrilən fəaliyyətlər ətraflı müzakirə olundu. TƏBİB tərəfindən müəssisəyə təqdim olunan tibbi avadanlıqlar, həmçnin icbari tibbi sığorta çərçvəsində tətbiq edilən yeniliklər diqqətə çatdırıldı.

Müəssisənin rəhbəri Dilbər Quliyeva qarşıdan gələn Yeni il və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə kollektivi təbrik edərək, hər kəsə möhkəm cansağlığı, peşə fəaliyyətində uğurlar və yeni nailiyyətlər arzuladı.

İclasın sonunda il ərzində səmərəli fəaliyyəti ilə fərqlənən həkimlər müəssisə rəhbərliyi tərəfindən bayram hədiyyələri ilə təbrik edildi. Qarşıdan gələn yeni ildə tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və əhalinin sağlamlığının qorunmasının əsas prioritetlərdən biri olacağı vurğulandı.

**Yeni Balakən**

# Balakən rayonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə bayram şənliyi keçrilib



30 dekabr 2025-ci il tarixində Balakən Rayon Mədəniyyət Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə "Hər bir azərbaycanlı üçün həmrəylik günü" adlı bayram şənliyi təşkil olunub.

Tədbir müxtəlif millətlərin nümayəndələrinin milli geyimlərdə ifa etdikləri multikultural yallı ilə başlanıb. Azərbaycan bayrağı altında oynanılan bu yallı Dünya Azərbaycanlılarının birliyini və həmrəyliyini rəmzi şəkildə ifadə edib.

Bayram şənliyində Şaxta Baba, Qar Qız və nağıl personajlarının çıxışları uşaqlar tərəfindən böyük maraqla qarşılanıb. Onların səmimi təbrikləri, şən zarafatları və uşaqlarla səmimi ünsiyyətləri tədbirə xüsusi rəng qatıb, balacalara xoş ovqat bəxş edib. Şaxta Babanın təşkil etdiyi maraqlı şeir, mahnı və rəqs müsabiqələrinin qaliblərinə hədiyyələr təqdim olunub.

Mədəniyyət müəssisələri işçləri və folklor kollektivlərinin təqdim etdiyi rəngarəng rəqs və musiqi nömrələri tamaşaçılar tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

**Zöhrə Bakeyeva**
**Bədii rəhbər**

# "Dövlətlə xalqın birliyi: Balakən Cümə Məscidində görüş"



Bu gün Balakən Cümə Məscidində rayon rəhbəri Natiq Ağayev rayonun din xadimləri və dindarları ilə görüş keçrdi. Görüşdə rayonun müxtəlif bölgələrindən gələn din xadimləri, Dini Komitənin əməkdaşları iştirak edirdi. Qonaqlar əvvəlcə məscid və minarə ilə tanış oldular, daha sonra Balakən qazısı İbrahim İbrahimovun müşayiəti ilə məscidə daxil oldular.

Məsciddə onları gözləyən dindarlarla salamlaşan Natiq Ağayev çıxışına başlayaraq, Balakənin din xadimlərini və dindarlarını görməkdən məmnun olduğunu, belə gözəl insanları və təbiəti olan rayona rəhbər təyin edilməsindən qürur duyduğunu bildirdi. Din xadimləri və tədbir iştirakçıları da rəhbəri "Xoş gəldin" sözləri ilə qarşılayaraq, onun fəaliyyətində uğurlar arzuladılar.

Natiq Ağayev çıxışında vurğuladı ki, görüşün əsas məqsədi insanlarla birbaşa ünsiyyətdə olmaq, onların dərd-sərlərini dinləmək, problemlərin həllinə kömək etmək və dövlətə olan inamı möhkəmləndirməkdir. O, dindarların rayonun nüfuzlu şəxsləri, ağsaqqalları olduğunu qeyd edərək, onların rayon həyatında fəal iştirakını, görülən işlərə münasibət bildirməsini, məsləhət və tövsiyələrini eşitmək istədiyini söylədi.

Rayon rəhbəri qarşıda görüləcək işlərdən danışaraq, elektrik, su və kanalizasiya problemlərinin həlli üçün lazımi materialların və işçi qüvvəsinin artıq gətirildiyini, işlərin bir neçə gün ərzində başlanacağını bildirdi. O, Balakənin strateji mövqeyinə toxunaraq, iki dövlətlə həmsərhəd olan bu bölgədən həm dostun, həm də düşmənin keçdiyini vurğuladı və problemlərin birlikdə həll olunmasının vacibliyini qeyd etdi.

Natiq Ağayev ehsan süfrələrində ifrat və israfın az olduğunu məmnuniyyətlə qeyd etsə də, dilənçlərin, xüsusilə də kiçk yaşlı uşaqların çoxluğundan narahatlığını dilə gətirdi. Onların məktəbə gedib təhsil almalı olduqlarını vurğulayaraq, bu məsələdə maarifləndirici tədbirlərin keçrilməsini zəruri saydı.

Görüş İkindi namazı üçün oxunan azanla sona çatdı. Rayon rəhbəri ayrılarkən növbəti dəfə eyni safda, camaatla birgə namaz qılmaq və yenidən görüşmək arzusunu ifadə etdi.

**Ramazan Abal**

# Natiq Ağayev sahibkarların yanında, maneələr tarixə qovuşur



Bu gün Balakən RİH-in inzibati binasında iş adamları və sahibkarlarla rayon rəhbəri Natiq Ağayevin görüşü oldu. Son 14 ildəki görüşlərdən fərqli olaraq bu dəfə tədbirdə xeyli sayda iş adamı və sahibkar iştirak edirdi. Təbii ki, səbəb də bəlli idi: hər zamankı kimi seçilmiş bir neçə nəfər, daim "yüklənənlər" deyil, görüş elanını eşidib gələn hər kəs iştirak etmişdi. Hətta o qədər çox idi ki, zal adam tutmurdu, koridorda kürsü qoyub oturmuşdular.

Unutmayaq ki, son 14 ildə Balakənin quruculuq işlərində cənab Prezidentin ayırdığı böyük məbləğli vəsaitlə görülən işlər istisna olmaqla, qalan işlərin az qala tamamını Balakənin iş adamları və sahibkarları "yüklənmə" yolu ilə həyata keçiriblər.

Tədbiri Natiq müəllim iştirakçıları salamlayaraq açdı. Rəhbər əvvəlki vəziyyətdən tam hali olduğunu göstərərək çıxışına iş adamlarını əmin etməklə başladı:

Tam arxayın, əmin şəraitdə işinizi quracaq, fəaliyyət göstərəcəksiniz.

Heç kim sizə münasibətdə neqativ hallara yol verməyəcək, haqsız və əsassız tələblər irəli sürülməyəcək.

Əvvəlki eybəcər istəklər, "yükləmələr" olmayacaq, iş adamlarına heç bir maneə yaradılmayacaq.

O, xaricdəki iş adamlarını da dəvət edərək Balakənə investisiya qoymağa çağırdı. Qanun çərçivəsində işlərini qurmaq üçün hərtərəfli dəstək veriləcəyini, hüquqi məsləhətlərdən tutmuş bilik səviyyəsində köməklik göstəriləcəyini vurğuladı.

Sonra söz Şəki-Zaqatala Regional Məşğulluq Filialının Təhlil və Tərəfdaşlarla İş şöbəsinin müdiri Vaqif Əsədullayevə verildi. O, iş adamlarına təqdim olunan güzəştlərdən, məşğulluğun təminində müəyyən kateqoriyalara tanınan imtiyazlardan, iş mühitinin inkişafı üçün yaradılan şəraitdən danışdı və bildirdi ki, sahibkarlar müraciətlərini elektron hökumət portalı üzərindən də edə bilərlər.

## Təkliflər və müzakirələr

Natiq müəllim əlavə etdi ki, iş adamlarına avadanlıqlar ona görə veriləcək ki, onlar müəyyən sayda işçi götürsünlər. O, iş yerlərinin açılması və iş şəraitinin yaradılması üçün bir çox istiqamətlər göstərdi. Bəzi məmurlara isə yerindəcə xəbərdarlıq edərək süründürməçiliyə yol verməməyi, iş adamlarına ciddi və həssaslıqla yanaşmağı tapşırdı.

Sahibkar Musalxan İbrahimov elektrik problemi ilə üzləşdiyini bildirdi və turizmin inkişafını təklif etdi. Natiq müəllim cavabında Balakəndə turizmin inkişafının vacib sahələrdən olduğunu, Katex şəlaləsi istiqamətində marşrutun açılmasının gündəmdə olduğunu, quru sərhədlərin açılması ilə turizmin beşqat artacağını qeyd etdi. Elektrik problemi ilə bağlı isə deputat Nəsib müəllimlə də görüşdüklərini,çox böyük dəstək verəcəyini və yaxın zamanda çatışmazlıqların aradan qaldırılacağını vurğuladı. Şəhərdə su və kanalizasiya xətlərinin mərhələli şəkildə yenilənəcəyi də bildirildi.

Sahibkar Vidadi Baydarov Balakən parkından və kanat yolunun məşhur dövründən söz açaraq hazırda kanatın işləmədiyini,rayona turist marağının azaldığını qeyd etdi. O, Balakən çayı boyunca Salban kəndinə qədər park-bulvar salınmasını təklif etdi və layihədə iştirak etməyə hazır olduğunu bildirdi.

Sizin gəlişiniz qış fəslinə təsadüf etsədə,bahar havası hiss olunur-deyə sözə başlayan iş adamı Məhəmməd Bazarov isə torpaq koordinatları, bağbanların maarifləndirilməsi və bağçılıq işinə peşəkar dəstəyin göstərilməsi ilə bağlı məsələləri səsləndirdi. Bununla bağlı rəhbərlə ayrıca görüşmək istədiyini bildirdi.Görüş istəyi müsbət qarşılandı.

Başçı sahibkarlara qanuni ət kəsimi yerlərinin yaradılmasını təklif etdi. Bu, həm qiymətlərin ucuzlaşmasına, həm də həkim nəzarətində gigiyenik şəraitdə ətin emalna səbəb olacaq.



## Sahibkarların rəyləri

İş adamı Mahir Caniyev görüşü maarifləndirici adlandıraraq xeyli bilgi əldə etdiyini bildirdi. Əfqan Balayev isə Natiq Ağayevdən razı qaldığını, iş adamlarının incidilməyəcəyinə inandığını və yeni rəhbərə, onun timsalında ölkə başçısına güvənərək sahibkarlıq fəaliyyətini davam etdirəcəklərini vurğuladı.

Natiq müəllim gələcəkdə tikiləcək obyektlərin və görüləcək işlərin müasir görünüşlü, Balakən memarlığına və şəhərsalmanın tələblərinə uyğun, keyfiyyətli şəkildə olmasının vacibliyini qeyd etdi. O, görüşdən məmnun qaldığını bildirərək sahibkarlara uğurlar arzuladı.

**Yeni Balakən**

# Balakən rayonunda "Heydər Əliyev – Konstitusiyamızın və Dövlət Suverenliyimizin Memarıdır!" adlı tədbir keçirilib



Balakən rayon Mədəniyyət Mərkəzində "Konstitusiya və Suverenlik ili" çərçivəsində ədəbi-bədii kompozisiya təqdim olunub.

19 dekabr 2025-ci il tarixində Balakən rayon Mədəniyyət Mərkəzində "Heydər Əliyev – Konstitusiyamızın və Dövlət Suverenliyimizin Memarıdır!" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb, ardınca Ulu öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, RİH aparatının kollektivi, idarə və müəssisə rəhbərləri, əməkdaşlar iştirak ediblər. Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin Balakən rayonu üzrə baş məsləhətçisi Şəfəq Hacıyeva çıxışında Ulu öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında, Konstitusiyanın qəbulunda və dövlət suverenliyinin möhkəmləndirilməsində oynadığı əvəzsiz rolu vurğulayıb.

Daha sonra Mədəniyyət Mərkəzinin əməkdaşları və bədii qiraət dərnəyinin üzvləri xalq şairi Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" əsasında hazırlanmış kompozisiyanı təqdim ediblər. Səhnə əsəri Ulu öndərin mənalı həyat yolunu, dövlətçilik tariximizdəki misilsiz xidmətlərini və xalq yaddaşında əbədi yaşayan zəngin irsini bədii formada əks etdirib.

Tədbirdə gənc vokalist Vasif Qasımov Sevil Əliyevanın "Əziz anam" mahnısını ifa edib. Musiqi nömrəsi dinləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

Sonda iştirakçılar Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitab sərgisi ilə tanış olublar.

**Yeni Balakən**



# Balakəndə "Valideyn–məktəb əməkdaşlığı" mövzusunda I Valideyn Konfransı keçirildi







Bu gün, 11 dekabr 2025-ci il, Balakən rayonunda Şəki-Zaqatala Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə "Valideyn–məktəb əməkdaşlığı" mövzusunda I Valideyn Konfransı baş tutdu. Tədbir Dövlət Himninin səsləndirilməsi və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda etmiş bütün şəhidlərin, eləcə də gənc nəslin təhsilinə daim xüsusi diqqət göstərmiş Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.Tədbir Balakən rayonu İnteqrasiya təlimli internat tipli gimnaziyanın akt zalında keçirildi.

## Təhsil sektorunun aktual məsələləri diqqətə çatdırıldı

Konfransın açılış nitqini Balakən Təhsil Sektorunun müdiri Mehparə Mirzəyeva etdi. O, çıxışında rayon üzrə təhsilin mövcud vəziyyəti, məktəblərin fəaliyyəti, əldə olunan nəticələr və qarşıda duran hədəflər barədə geniş məlumat verdi.

Daha sonra Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdir müavini Hafiz Pənahov mövzuya dair slayd təqdimatı ilə çıxış edərək valideyn–məktəb əməkdaşlığının müasir təhsil sistemində rolundan, bu əməkdaşlığın uşaqların inkişafına təsirindən danışdı.

## Mütəxəssislərin çıxışları və aktual mövzular

Konfrans çərçivəsində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Zaqatala Uşaq və Ailələrə Dəstək Mərkəzinin sosial iş üzrə mütəxəssisi Şəhla Məmmədova, həmçinin Balakən Rayon Polis Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qrupunun baş inspektoru Sahil Bayramov mövzu ətrafında çıxış edərək valideynlərin maarifləndirilməsi, uşaqların təhlükəsizliyi və sosial rifahı ilə bağlı vacib məqamları diqqətə çatdırdılar.

## Panel müzakirələri və qarşılıqlı fikir mübadiləsi

Rəsmi çıxışlardan sonra tədbir panel müzakirələri ilə davam etdi. Valideynlər, müəllimlər və təhsil mütəxəssisləri arasında aparılan fikir mübadiləsi əməkdaşlığın daha da gücləndirilməsi, valideynlərin təhsil prosesinə sistemli şəkildə cəlb olunması və uşaqların hərtərəfli inkişafının təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıdı.

Konfransın məqsədi

Tədbirin əsas məqsədi məktəb və məktəbəqədər təhsil müəssisələri ilə ailə arasında tərəfdaşlığı möhkəmləndirmək, valideyn iştirakını artırmaq, uşaqların rifahını və təhsil mühitində sosial dəstəyi gücləndirməkdən ibarət idi.

**Yeni Balakən**

# "Mənim Azərbaycanım": Həmrəylik Ruhunun Musiqi ilə Vüsət Tapdığı Axşam

27 dekabr tarixində Balakən rayonunda keçirilən "Mənim Azərbaycanım" adlı konsert proqramı Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunaraq, həm milli qürur hissini, həm də musiqi və incəsənətin birləşdirici gücünü bir daha nümayiş etdirdi.

Tədbir məktəbin müəllim və şagird kollektivinin təşəbbüsü ilə hazırlanmış, səhnədəki hər çıxış bir vətən sevgisinin ifadəsinə çevrilmişdi. Konsertin xüsusi qonağı — Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi Səxavət Məmmədov — öz rəngarəng çıxışları,Balakən Uşaq İncəsənət Məktəbinin direktoru Arifə Tağıyevayla birgə ifaları ilə proqramın bədii dəyərini daha da artırdı.

## Zəfər ruhu ilə açılan səhnə

Tədbirin açılışında məktəbin şagirdlərindən ibarət xalq çalğı alətləri ansamblı və uşaq xorunun birgə ifasında "Heyratı" muğamı əsasında hazırlanmış Zəfər marşı səsləndirildi. Bu kompozisiya təkcə musiqi deyil, həm də tarix və qürur dolu bir mesaj idi — tamaşaçılar arasında duyğulu baxışlar, alqışlar və qürur dolu anlar yaşandı.

Ardınca nümayiş olunan videoçarx, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün mahiyyətini və bu günün xalqımız üçün nə qədər dəyərli olduğunu vizual və emosional şəkildə çatdırdı.

## Səhnədə birləşən ürəklər

Konsert boyu səhnədə müəllim və şagirdlərin birgə çıxışları, fortepiano və xoreoqrafiya şöbələrinin sinerjisi ilə təqdim olunan "İgidlər" mahnısı ilə kulminasiya nöqtəsinə çatdı. Bu ifa, həm estetik baxımdan, həm də məna etibarilə tədbirin ruhunu tamamladı — igidlik, birlik və vətənə sevgi.

## Tədbirin qonaqları və ictimai əhəmiyyəti

Tədbirdə Rayon İcra Hakimiyyəti adından Nəzakət xanım Rüstəmova, Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin rəisi Ülkər Mahmudova və idarə heyəti, şəhid və qazi ailələri, mədəniyyət işçiləri, valideynlər və digər qonaqlar iştirak edirdi. Onların varlığı tədbirə həm rəsmi, həm də mənəvi dəyər qatdı.

## Son söz əvəzi

"Mənim Azərbaycanım" konsert proqramı bir daha sübut etdi ki, musiqi və incəsənət təkcə sənət deyil — həm də həmrəylik, tarix və kimlik ifadəsidir. Balakənin gənc ifaçıları və müəllimləri bu axşam səhnədə təkcə notları deyil, ürəklərini bölüşdülər. Bu tədbir yaddaşlarda birlik, qürur və sevgi ilə dolu bir musiqi gecəsi kimi qalacaq.

**Ramazan Abal**









# 81 yaşlı müəlliməyə bayram ziyarəti – həmrəylik və minnətdarlıq

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Balakən rayonunun Qaysa kəndində tənha yaşayan, uzun illər Qabaxçöl peşə məktəbində çalışmış Amalova Məleykə Ramazan qızı ziyarət olundu. Bu mənalı görüş Balakən rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev, idarə heyətinin üzvləri Maqsud Bazarov və Meysarat Qaysayeva, Balakən RİH yanında İctimai Şuranın sədri Ramazan Molulovun təşəbbüsü ilə baş tutdu.

81 yaşlı Məleykə xanım tənha yaşasa da, bu bayram günü onun evində sevgi və hörmət dolu anlar yaşandı. Qonaqlar onu xoşladığı hədiyyələrlə sevindirdilər, bayram münasibətilə təbriklərini çatdırdılar. Məleykə Amalova Sovet dövründə Xalq Təsərrüfatı İnstitutunu bitirmiş, mühasib və iqtisadçı kimi çalışmış, Azərbaycanın müstəqillik illərində isə Qabaxçöl peşə məktəbində dərs demişdir. 70 yaşında təqaüdə çıxana qədər bu təhsil ocağında fədakarcasına fəaliyyət göstərmişdir.

Ziyarət zamanı Məleykə xanım peşə məktəbi kollektivindən razılığını bildirdi. Xüsusilə vida tədbirində ona göstərilən diqqət və hörməti unutmayan Məleykə xanım, məktəbin direktoru Azad Dibirova "Yeni Balakən" qəzeti vasitəsilə təşəkkürünü çatdırmağı xahiş etdi:

“Hörmətli Azad Dibirov, sizin mənə göstərdiyiniz xoş münasibəti, anlayışınızı, zəhmətimə verdiyiniz dəyəri unutmuram və hər yerdə bunu qiymətləndirirəm. Sizə təşəkkür edirəm.”

Məleykə xanım həmçinin qonşularına, qohumlarına və xüsusilə Sosial Xidmətlər Agentliyinin sosial işçisi Svetlana Bazarovaya göstərdikləri qayğıya görə minnətdarlığını bildirdi. Dövlətin ona göstərdiyi diqqətə görə cənab Prezidentə təşəkkürünü dilə gətirdi.

## Sevincin gücü

Ziyarət günü Məleykə xanımın sevinc dolu anları yadda qaldı. Adətən yeriməkdə çətinlik çəkən, iki tutacaqlı, dörd ayaqlı xüsusi vasitədən istifadə edən Məleykə xanım, qonaqların gələcəyini əvvəlcədən bildiyindən həyətdə onları görəndə sevincindən hər şeyi unutdu. Ayaqda qalmaqda çətinlik çəksə də, heç bir vasitə olmadan bir neçə addım ataraq balkona çıxdı və qonaqları ayaqda qarşıladı. Bu an sevginin və diqqətin insan həyatında necə böyük gücə sahib olduğunu bir daha göstərdi.

Bu ziyarət həmrəylik gününün ruhuna uyğun olaraq, yaşlılara göstərilən hörmətin, keçmişə olan ehtiramın və insanlıq dəyərlərinin gözəl nümunəsi oldu.

**Yeni Balakən**

# QARAHACILLI MƏKTƏBİN BEYNƏLXALQ UĞURU








Bakıda keçirilən “Olympiad USA” Beynəlxalq İngilis Dili Olimpiadasında Balakənin Qarahacıllı kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Kərimova Güleyşə yüksək nəticə göstərərək Gümüş medalla təltif olunub.

Bu uğur həm məktəbimizin, həm də bütün bölgəmizin təhsil sahəsindəki nailiyyətlərinin bariz göstəricisidir. Güleyşənin fədakar zəhməti, müəllimlərinin peşəkarlığı və valideynlərinin dəstəyi sayəsində əldə olunan bu nəticə Balakən gənclərinin beynəlxalq arenada öz sözünü deməyə qadir olduğunu bir daha sübut etdi.

Məktəb rəhbərliyi və müəllim kollektivi şagirdimizi ürəkdən təbrik edir, ona gələcək fəaliyyətində daha böyük uğurlar arzulayır. Bu medal Qarahacıllı məktəbinin tarixinə uğurların davamı kimi yazılacaq və yeni nəsil şagirdlər üçün ilham mənbəyi olacaq.

Yeni Balakən redaksiyası olaraq biz də Güleyşəni təbrik edir, onun uğurunu bütün oxucularımızla bölüşməkdən qürur duyuruq.

**Yeni Balakən**

# Balakəndə futzal liqasının açılışı

Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümünə həsr olunmuş turnir start götürdü

Balakən rayonunda idarə, təşkilat və bələdiyyələr arasında futzal liqasının açılışı keçirilmişdir. Turnir Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümünə həsr olunaraq gənclərin idmana marağını artırmaq və sağlam həyat tərzini təşviq etmək məqsədi daşıyır.

Futzal liqası Balakən Rayon İcra Hakimiyyəti, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Balakən sektoru, eləcə də Balakən Olimpiya İdman Kompleksinin birgə təşkilatçılığı ilə reallaşır. Oyunlar hər həftənin üçüncü və dördüncü günləri Olimpiya İdman Kompleksində keçiriləcək.

Açılış mərasimində Balakən Rayon İcra Hakimiyyətinin nümayəndələri, UGİŞM, Olimpiya İdman Kompleksi, bələdiyyə və müxtəlif təşkilatların təmsilçiləri iştirak ediblər.

Bu mötəbər liqada ümumilikdə 14 komanda mübarizə aparır. İlk oyun günündə nəticələr belə olub:

Qabaqçöl – Texas: 4–1

Mahamalar bələdiyyəsi – Katex bələdiyyəsi: 4–2

Gənclər – OİK: 8–2

Turnir 2025-ci ilin may ayında yekunlaşacaq və qalib komanda Balakən idman tarixində yeni bir səhifə açacaq.

**Yeni Balakən**








# “ELMAS”da ilin son iş günü

“ELMAS” klinikasında 2025-ci ilin yekunlarına həsr olunmuş tədbir keçirildi. Klinikanın təsisçisi və rəhbəri Əfqan Balayev giriş sözü ilə tədbiri açaraq iştirakçıları salamladı. O, 2025-ci ildə əldə olunan uğurlardan, həkim heyətinin peşəkarlığından və vətəndaşların məmnuniyyətindən danışaraq, 2026-cı ildə daha böyük nailiyyətlərə imza atmağı hədəflədiklərini vurğuladı.

Klinikanın baş həkimi, doktor Məhəmməd Herayev çıxışında rəhbərliyi və ictimaiyyəti əmin etdi ki, bu temp davam etdirilərsə, daha çox vətəndaşa yüksək keyfiyyətli, operativ və yerində tibbi xidmət göstəriləcək.

Tədbirin sonunda rəhbərlik bütün personalı 31 Dekabr – Dünya Azərbaycanlıların Həmrəylik Günü və Yeni il münasibətilə dəyərli hədiyyələrlə təbrik etdi, işlərində uğurlar arzuladı. İştirakçılar xatirə şəkli çəkdirərək tədbiri yekunlaşdırdılar.

**P.S**. “ELMAS” klinikasında bir sıra yeniliklərin şahidi olduq. Bu barədə növbəti nömrəmizdə geniş məlumat verəcəyik.

**Yeni Balakən**

# Ümid və Birlik Körpüsü – Həmrəyliyin Bayramı

Balakəndə xüsusi qayğıya ehtiyacı olan gənclər və uşaqlar üçün əlamətdar tədbir keçirildi.

26 dekabr 2025-ci il tarixində Balakən Gənclər Evi “Balakən” sarayda “Ümid və birlik körpüsü” adlı tədbir keçirdi. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən bu bayram proqramı gənclər, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və onların valideynləri üçün unudulmaz anlar yaşatdı.

Balakən Rayon İcra Hakimiyyəti tədbirə həm təşkilati, həm də mənəvi dəstək göstərdi.Tədbir isə Regional Gənclər və İdman İdarəsinin Balakən rayonu üzrə Gənclər və İdman Sektoru, Rayon Təhsil Sektoru və Balakən Gənclər Evinin birgə təşkilatçılığı ilə baş tutdu.

Əyləncəli proqramın ərsəyə gəlməsində, keçirilən yarışların qaliblərinin mükafatlandırılmasında,bir sıra hədiyyələrin və mükafatların təşkil olunmasında rayon Təhsil Sektoru, Gənclər və İdman Sektoru, Balakən Olimpiya İdman Kompleksi, eləcə də yerli sahibkarların maddi və təşkilati yardımı mühüm rol oynadı.

Tədbirin keçirildiyi məkanda təşkil edilmiş xüsusi qayğıya ehtiyacı olan uşaqların əl işlərindən ibarət baxış və satış sərgisinə iştirakçılar maraq göstərir,satış üçün qoyulan əl işlərindən alaraq xüsusi qayğıya ehtiyacı olan uşaqlara maddi dəstək oldular.Gənclər Evi bu qəbildən olan tədbirləri mütəmadi olaraq həyata keçirir və belə insanların tanınmasında,cəmiyyətə inteqrasiya olunmasında, onlara maddi-mənəvi dəstəyin göstərilməsində önəmli addımlar atır,keyfiyyətli işlər görür.

Bayram abu-havası ilə keçən tədbirdə birlik və həmrəylik ruhu hər kəs tərəfindən hiss olundu. İştirakçılar – gənclər, uşaqlar, valideynlər və idarə əməkdaşları – birgə şənlikdə həmrəyliyin gücünü bir daha dərk etdilər.





Balakən Gənclər Evi olaraq bu nəcib təşəbbüsə dəstək verən bütün qurumlara və sahibkarlara təşəkkürümüzü bildirir, hər kəsi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirik.

**Tale Şahverdiyev**
**Direktor Balakən Gənclər Evi SXM**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100